Müşavirədə qarşıda duran bir sıra məsələlər və prioritet istiqamətlərlə bağlı müzakirələr aparılıb.

Təhsil naziri Misir Mərdanov 2008-2009-cu tədris ilində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən danışaraq işə daha da ciddi məsuliyyətlə yanaşılmasının vacibliyini bildirib.

Sonra Misir Mərdanov cari ilin sentyabrında keçiriləcək Azərbaycan müəllimlərinin XIII qurultayına hazırlıq işlərinin aparılmasının ən vacib məsələ olduğunu diqqətə çatdırıb, nazirliyin müvafiq struktur bölmə rəhbərlərinə bu istiqamətdə lazımi işlərin həyata keçirilməsi məqsədilə tapşırıqlar verib, eləcə də bununla əlaqədar Təşkilat Komitəsinin yaradılması qərara alınıb.

Müşavirədə yaxın günlərdə nəşri nəzərdə tutulan “Azərbaycanın təhsil tarixi” kitabı üzrə işin yekunlaşdırılması, orta ümumtəhsil məktəblərində xarici dillərin tədrisində mövcud olan problemlərin aradan qaldırılması, məktəblərin müasir avadanlıqlara malik fizika və kimya üzrə laboratoriyalarla təchiz olunması, dərsliklərlə təminat, habelə digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, müvafiq şəxslərə konkret göstərişlər verilib.